# AZƏRBAYCAN RESPUBLİKASI

# BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# Ə M R İ

№ 52 "12" İyul 2023-cü il

**Binəqədi rayonunda tikintiyə dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi ilə əlaqədar ərazi bölgüsünün müəyyən edilməsi və məsul şəxslərin müəyyən olunması haqqında**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı sosial və iqtisadi islahatlar çərçivəsində tikinti, şəhərsalma və memarlıq sahələrində qanunvericilik aktlarının qəbul edilməsi, eləcə də bu istiqamətdə uzunmüddətli dövlət layihələrinin uğurla həyata keçirilməsi məqsədilə görülən işlər prioritet məsələlər sırasında olmaqla, inşaat sektorunun inkişafı üçün münbit və əlverişli şərait yaradılıb.

Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, Binəqədi rayonu ərazisində də qanunsuz tikinti işlərinin aparılmasının qarşısının alınması məqsədi ilə monitorinq qrupları tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirilmiş, aşkar olunmuş qanun pozuntuları ilə bağlı hüquq-mühafizə orqanları məlumatlandırılaraq, zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də və 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən yerli icra hakimiyyətlərinin başçılarına bir sıra tapşırıqlar verilmişdir.

Belə ki, Əsasnaməyə əlavə edilmiş 3.11.5-2-ci yarımbəndə əsasən yerli icra hakimiyyətlərinin başçıları şəhərlərdə, şəhər rayonlarında yerli səviyyədə dövlət şəhərsalma nəzarətini həyata keçirir, o cümlədən özbaşına tikinti işlərinin qarşısının alınması məqsədilə inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə ərazi nəzarət bölgüsünü aparır, həmin nəzarət bölgüsü üzrə icra hakimiyyətinin işçilərindən məsul şəxsləri təyin edir, onların əlaqə nömrələrinin və elektron poçt ünvanlarının icra hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin edir.

Yuxarıda göstərilənlərə əsasən, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndinə, "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də və 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2023-cü il tarixli 2186 saylı Fərmanına əsasən

**Ə M R E D İ R Ə M:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli Fərmanının 1.1-ci bəndində verilmiş tapşırığın icrasının təmin edilməsi məqsədi ilə Bakı şəhəri Binəqədi rayonu ərazisində şəhərsalma və tikinti fəaliyyəti sahəsində baş verən qanun pozuntularının vaxtında aşkar edilərək qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün monitorinqlərin təşkil edilməsi məqsədi ilə rayon ərazisi aşağıdakı nəzarət sahələrinə bölünsün:

| Sıra N-si | Nəzarət sahələri | Əhatə etdiyi inzibati ərazi |
|---|---|---|
| 1. | I nəzarət sahəsi | Binəqədi rayonu 7-ci və 8-ci mikrorayonlar, Dərnəgül yaşayış massivi (*1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) |
| 2. | II nəzarət sahəsi | Binəqədi rayonu 6-cı və 9-cu mikrorayonlar (*1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) |
| 3. | III nəzarət sahəsi | M.Ə.Rəsulzadə qəsəbəsi (*M.Ə.Rəsulzadə Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) |
| 4. | IV nəzarət sahəsi | Biləcəri qəsəbəsi (*Biləcəri Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) |
| 5. | V nəzarət sahəsi | Binəqədi qəsəbəsi (*Binəqədi Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*), Novxanı, Goradil, Fatmayi bağlar massivi |
| 6. | VI nəzarət sahəsi | Xocəsən qəsəbəsi (*Xocəsən Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) |
| 7. | VII nəzarət sahəsi | 28 May qəsəbəsi (*28 May Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) |

**2.** Müəyyən olunmuş nəzarət sahələri üzrə RİH-in aidiyyəti struktur bölmələrinin rəhbərləri və əməkdaşları arasından aşağıdakı tərkibdə məsul şəxslər təyin edilsin, həmin şəxslər barədə tələb olunan məlumatlar (*əlaqə telefon nömrələri və elektron poçt ünvanları*) dəqiqləşdirilməklə əmrə əlavə edilsin (**Əlavə 1**):

| Sıra N-si | Nəzarət sahələri | Soyadı, adı, atasının adı | Məsul şəxsin vəzifəsi |
|---|---|---|---|
| 1. | I nəzarət sahəsi | Əliyev Sabir Qələndər oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| 2. | II nəzarət sahəsi | Kərimov Azər Aydın oğlu | Rayon təsərrüfatı şöbəsinin müdiri |
| 3. | III nəzarət sahəsi | Allahverdiyev Nicat Elman oğlu | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| 4. | IV nəzarət sahəsi | Musayev Şahin Möhtərəm oğlu | Rayon təsərrüfatı şöbəsinin böyük məsləhətçisi (memar) |
| 5. | V nəzarət sahəsi | Cahangir-zadə İskəndər Kamil oğlu | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| 6. | VI nəzarət sahəsi | Həsənov Rauf Arif oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| 7. | VII nəzarət sahəsi | Dəmirli Seyfəddin Allahverdi oğlu | Rayon təsərrüfatı şöbəsinin baş məsləhətçisi (mühəndis) |

**3.** RİH başçısının müavini Hacıbaba Babayevə tapşırılsın ki, RİH başçısının müəyyən edilmiş ərazi bölgüsünə əsasən təyin edilmiş məsul şəxslərlə aidiyyəti üzrə işin təşkilinə və zəruri tədbirlərin görülməsinə rəhbərlik etsin.

**4.** RİH başçısı Aparatının aidiyyəti struktur bölmələrinin rəhbərləri və əməkdaşları arasından təyin edilmiş məsul şəxslərə tapşırılsın ki, məsul olduqları nəzarət sahəsi üzrə RİH başçısının aidiyyəti sahə və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndəliklərin məsul əməkdaşları, Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin mənzil-kommunal istismarı sahələrinin rəhbərləri fəaliyyət göstərdikləri ərazi üzrə mütəmadi monitorinqlərin aparılması, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.11.5-2-ci yarımbəndinə əsasən aşkar olunmuş qanun pozuntusu halları ilə bağlı məlumatların dərhal aidiyyəti üzrə ötürülməsini təmin etsinlər.

**5.** RİH Başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Aynur Quliyevaya tapşırılsın ki, rayon ərazisində bölgüsü aparılmış nəzarət sahələri və həmin sahələr üzrə təyin edilmiş məsul şəxslər barədə zəruri məlumatların **("Əlavə 1"**) Binəqədi Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin;

**6.** RİH Başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, əmrin surətinin müvafiq ərazi nəzarət sahələri üzrə təyin edilmiş məsul şəxslərə, RİH başçısının SİƏD və QİƏD üzrə nümayəndəliklərinə, Rayon MKTB-yə və RİH-in rəsmi internet səhifəsində yerləşdirilməsi məqsədilə RİH başçısı Aparatının İnformasiya təminatı və təhlil sektoruna ötürülməsini təmin etsin.

**7.** Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

***Əsli ilə düzdür*:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Əlavə 1

**"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VİQD nömrəli Qanununun icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2023-cü il tarixli 2186 nömrəli Fərmanına əsasən Şəhərsalma nəzarətinin həyata keçirilməsi məqsədilə müəyyən edilmiş ərazi bölgüsü və müvafiq ərazi üzrə təyin olunmuş məsul şəxslərlə bağlı məlumatlar**

| Sıra N-si | Nəzarət sahələri | Əhatə etdiyi inzibati ərazi | Məsul şəxslər | Vəzifələri | Əlaqə vasitələri | |
|---|---|---|---|---|---|---|
| | | | | | əlaqə telefonları | Elektron poçt ünvanı |
| 1. | I nəzarət sahəsi | Binəqədi rayonu 7-ci və 8-ci mikrorayonlar, Dərnəgül yaşayış massivi (*1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) | Əliyev Sabir Qələndər oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | (050) 623-07-03<br><br>(012) 562-25-50<br>(012) 562-48-32<br>(daxili: 515) | aliyev.s@ binegedi-ih.gov.az |
| 2. | II nəzarət sahəsi | Binəqədi rayonu 6-cı və 9-cu mikrorayonlar (*1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) | Kərimov Azər Aydın oğlu | Rayon təsərrüfatı şöbəsinin müdiri | (050) 210-36-58<br><br>(012) 561-17-41<br>(012) 562-48-32<br>(daxili: 546) | a.kerimov@ binegedi-ih.gov.az |
| 3. | III nəzarət sahəsi | M.Ə.Rəsulzadə qəsəbəsi (*M.Ə.Rəsulzadə Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) | Allahverdiyev Nicat Elman oğlu | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | (050) 222-66-26<br><br>(012) 562-27-47<br>(012) 562-48-32<br>(daxili: 512) | n.allahverdiyev@ binegedi-ih.gov.az |
| 4. | IV nəzarət sahəsi | Biləcəri qəsəbəsi (*Biləcəri Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) | Musayev Şahin Möhtərəm oğlu | Rayon təsərrüfatı şöbəsinin böyük məsləhətçi (memar) | (050) 327-71-17<br><br>(012) 562-48-32<br>(daxili: 507) | musayev.shahin@ binegedi-ih.gov.az |
| 5. | V nəzarət sahəsi | Binəqədi qəsəbəsi (*Binəqədi Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin* | Cahangir-zadə İskəndər Kamil oğlu | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması | (050) 211-30-54<br><br>(012) 561-53-66 | i.cahangirzade@ binegedi-ih.gov.az |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | *inzibati ərazisi*) Novxanı bağlar massivi, Goradil bağlar massivi, Fatmai bağlar massivi | | şöbəsinin müdiri | (012) 562-48-32 (daxili: 526) | |
| 6. | **VI nəzarət sahəsi** | Xocəsən qəsəbəsi (*Xocəsən Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) | Həsənov Rauf Arif oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | (055) 227-31-47<br><br>(012) 563-03-40<br>(012) 562-48-32<br>(daxili: 511) | r.hesenov@binegedi-ih.gov.az |
| 7. | **VII nəzarət sahəsi** | 28 May qəsəbəsi (*28 May Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin inzibati ərazisi*) | Dəmirli Seyfəddin Allahverdi oğlu | Rayon təsərrüfatı şöbəsinin baş məsləhətçisi (mühəndis) | (050) 211-13-35<br><br>(012) 562-48-32<br>(daxili: 534) | demirli.seyfeddin@binegedi-ih.gov.az |